**_Vidadi Aydın oğlu Muradov_**
*tarix üzrə fəlsəfə doktoru, professor*
E-mail: vidadimuradov@gmail.com

**UOT 94 (479.24)**

# ORDUBAD ŞƏHƏRININ IQTISADI HƏYATINDA BAĞÇILIĞIN ROLU

**Açar sözlər:** Ordubad şəhəri, bağçılq, iqtisadi həyat, meyvəçilik, üzümçülük

**Ключевые слова:** город Ордубад, садоводство, экономическая жизнь, плодоводство, виноградарство

**Keywords**: Ordubad city, gardening, economic life, fruit growing, grape vine-growing

İstər orta əsrlər dövründə, istərsə də yeni dövrdə Azərbaycan şəhərlərinin əksəriyyətində yaşayan əhalinin əsas məşğuliyyət sahələrindən birini əkinçilk, o cümlədən bağçılıq təşkil edirdi. Bu fəaliyyət sahəsi ticarət və sənətkarlığın nisbətən zəif inkişaf etdiyi şəhərlərdə daha geniş yayılmışdı. XIX əsrdə Cənubi Qafqazda sənətkarlıq istehsalının tarixini tədqiq etmiş S.A.Yegiazarov yazırdı ki, belə şəhərlərdə şənətkarlıqdan əldə edilən gəlir bu işlə məşğul olanların tələbatını tamamilə ödəyə bilmədiyindən şəhər əhalisi "eyni zamanda kənd təsərrüfatının müxtəlif sahələri - əkinçilik, bağçılıq, ipəkçilik və tərəvəzçiliklə məşğul olurdu"[8,s.61].

Ordubad şəhərinin iqtisadi həyatını digər Azərbaycan şəhərlərindən fərqləndirən əsas xüsusiyyətlərdən biri burada bağçılığın daha yüksək inkişaf səviyyəsinə çatması idi. Heç də təsadüfi deyildir ki, bütün dövrlərdə bu şəhər haqqında məlumat verən müəlliflərin əksəriyyəti diqqəti, ilk növbədə bağçılığın onun xarici görünüşünə və iqtisadi vəziyyətinə böyük təsir göstərməsinə cəlb etmişlər. Orta əsr müəllifi Həmdullah Qəzvininin XIII-XIV əsrlərə aid məlumatında Ordubad bağlar içərisində qərq olmuş gözəl bir şəhər kimi xarakterizə olunur [4,s.25;18,s.51]. Ordubadda bağçılığın inkişafı haqqında XVII əsrdə Azərbaycana olmuş alman səyyahı Adam Oleari daha ətraflı məlumat verir. O, yazırdı ki, Ordubadda yetişdirilən üzüm, alma, armud, ərik, nar, gavalı, şaftalı kimi meyvələrin şöhrəti bütün ətraf vilayətlərə yayılmışdır. Alman səyyahı burada yetişdirilən "Əlidərəsi" və "Kəsəyi" adlı üzüm növlərini çox məhsuldar və dadlı üzüm kimi təsvir edərək yazırdı ki, onlara Azərbaycanın başqa yerlərində rast gəlmək mümkün deyildir [12, s.756].

Ordubadın tarixən bağlar şəhəri olması fikrini 1727-ci ildə osmanlı vergi məmurları tərəfindən tərtib edilmiş "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə verilən statistik məlumatlar da təsdiq edir. Həmin məlumatlardan aydın olur ki, XVIII əsrin əvvəllərində bu şəhərdə yaşayan əhali ticarət və sənətkarlıqla yanaşı üzümçülük və bağçılıqla da məşğul olmuşdur. Güman etmək olar ki, bu fəaliyyət sahələri, xüsusilə üzümçülük ordubadlıların əsas gəlir mənbələrindən birini təşkil edirdi. Təkcə o faktı göstərmək kifayətdir ki, türk vergi məmurları Ordubad şəhərində hər birinin sahəsi 1 qitə olan 103 üzüm bağı qeydə almışdılar. Bu bağlardan 15-i "müfəssəl dəftərdə" adı göstərilməyən məhəllədə, 27-si Anbaras məhəlləsində, 17-si Mingis məhəlləsində, 29-u Sərşəhər məsəlləsində, 15-i isə İçtərəngi məhəlləsində yerləşirdi[3,s.125-133]. Bu dövrdə Ordubadda yaşayan əhali, məhdud şəkildə də olsa, arpa, buğda, darı kimi dənli bitkilərin əkilib-becərilməsi ilə də məşğul olurdu.

Ordubad şəhərində bağçılığın vəziyyəti haqqında rus müəlliflərinin XVIII əsrin sonu-XIX əsrin əvvəllərini əhatə edən əsərlərində daha çox məlumat verilir. Rusiya işğalından sonra Naxçıvan diyarının statistik təsvirini vermiş V.Qriqoryevin məlumatlarına görə, Ordubad şəhərində olan evlərin hamısının həyətində meyvə bağı salınmışdı və bu bağlardan əhali xeyli gəlir əldə edirdi. Şəhərin

ətrafında isə şəhər əhalisinə məxsus 193 bağda müxtəlif növ meyvə və üzüm yetişdirilirdi [7, s.218-219].

XIX əsrin birinci yarısında Ordubad bağlarının məhsuldarlığından və bu bağlarda yetişdirilən meyvələrin yüksək keyfiyyətindən İ.Şopen daha ətraflı məlumat verir. Onun yazdığına görə, Ordubadda yetişdirilən alma, armud, şaftalı, alça, gavalı öz dadlarına görə qonşu ərazilərdə yetişdirilən bu növ meyvələrdən çox seçilirdi. Müəllifin "Gilabi" adlı armud növü haqqında verdiyi məlumat xüsusi maraq doğurur. Çox dadlı və böyük olan bu armudu növbəti ilin yazına qədər saxlamaq olurdu [20, s.749].

Mənbələrin verdikləri məlumatları diqqətlə araşdırdıqda aydın olur ki, Ordubadda bağçılıq getdikcə daha çox əmtəə xarakteri daşıyırdı. İstehsal edilən meyvə həm təzə, həm də qurudulmuş şəkildə satışa çıxarılırdı. XIX əsrin 30-cu illərinə aid olan məlumata görə, Ordubadın qurudulmuş meyvəsinin əsas satış bazarı Tiflis şəhəri hesab edilirdi. Müasirlərdən biri yazırdı ki, tacirlər Ordubadda qurudulmuş şaftalının hər batmanını yerli əhalidən 50 qəpiyə, albuxaranın hər batmanını 1,6 rubla, əriyin hər batmanını isə 1 rubla alıb Tiflisə aparır və burada baha qiymətə satırdılar[7, s.218-219].

Əldə olan statistik məlumatların təhlili bir də onu göstərir ki, bağçılıq getdikcə daha çox Ordubadda yaşayan əhalinin əsas gəlir mənbələrindən birinə çevrilirdi. Bu məlumatlara əsaslanaraq, tam əminliklə söyləmək olar ki, ordubadlıların bağçılıqdan əldə etdikləri gəlir, bəzi vaxtlarda sənətkarlıqdan əldə edilən gəlirlə bərabər olur, hətta bəzən onu üstələyirdi. Şəhərdə istehsal edilən sənətkarlıq məhsullarının satış bazarının məhdudluğu ona gətirib çıxarırdı ki, şəhər əhalisinin digər təbəqələri kimi sənətkarların da əksəriyyəti, özlərinin əsas peşələri ilə yanaşı, daha sabit gəlir verən bağçılıqla məşğul olurdular. XIX əsrin 60-cı illərinə aid mənbələrdə verilmiş statistik məlumatlar əsasında apardığımız hesablamalar da bu fikri təsdiq edir. Belə ki, 1863-cü ildə Ordubad şəhərində mövcud olan bütün sənət növlərindən əldə edilən gəlirin ümumi həcmi, təxminən 80-90 min rubl təşkil edirdi [19, s.410]. Təxminən elə həmin dövrə aid başqa bir mənbədən əldə etdiyimiz məlumatdan isə aydın olur ki, bu dövrdə Ordubad şəhərində yaşayan 1000 ailənin hər biri bağçılıqdan ildə, orta hesabla, 80-90 rubl məbləğində gəlir götürürdü [17, s.61]. Belə vəziyyət, hər şeydən əvvəl, Ordubad torpağının bağçılığın inkişafı üçün çox əlverişli olması ilə bağlı idi. Təkcə o faktı göstərmək kifayətdir ki, əlverişli illərdə bu torpağın hər desyatinindən 40-50 rubl həcmində təmiz gəlir götürmək mümkün olurdu [17, s.61]. 1856-cı ilə aid olan məlumata görə, həmin il Ordubad bağlarından ümumilikdə 5470 pud ərik, şaftalı, alma, armud, heyva, qoz, alça, gavalı, gilas və s. toplanmışdı [5,s.62;9,s.10].

Bağçılığın Ordubadda əhalinin mühüm gəlir mənbələrindən birini təşkil etməsi son nəticədə ona gətirib çıxarırdı ki, getdikcə daha çox adam bu işlə məşğul olur və nəticədə bağçılıq üçün ayrılmış əkin sahələrinin həcmi sürətlə artırdı. Bəzi məlumatlara görə, Ordubad şəhərinin əhatə etdiyi ərazinin yarıdan çoxunda meyvə bağları salınmışdı [14,24]. Bağçılığın getdikcə böyük gəlir verməsi bu məqsəd üçün nəzərdə tutulan əkin sahələrinin də qiymətini artırırdı. 1868-ci ilin məlumatına görə, burada daş-kəsəkdən yaxşı təmizlənib əkilmiş və gübrələnmiş 1 desyatin bağ sahəsinin qiyməti 500-1000 rubl təşkil edirdi [17,s.62].

Ordubad şəhərində meyvə bağları 2000 desyatindən artıq sahəni əhatə edirdi [19, s.409]. Bu isə bütün Ordubad dairəsində olan bağların 15%-i demək idi. Bağçılıq üçün ayrılan əkin sahələri genişləndikcə bu sahələrdə salınan bağların da sayı artırdı. Əgər şəhər əhalisinin məxsus meyvə bağlarının sayı XIX əsrin 30-cu illərində 423 olmuşdusa [15, s.257], 60-cı illərdə onların sayı 470-ə [6,s.667], bəzi məlumatlara görə isə hətta 700-ə çatmışdı [11,s.410].

Ordubad bağlarından yığılan meyvə bazara həm təzə, həm də qurudulmuş şəkildə çıxarılırdı. Heç şübhəsiz ki, təzə meyvənin daşınması zamanı yaranan çətinliklər onun daha yaxın məsafələrdə yerləşən bazarlarda,

ilk növbədə, Ordubadın özündə və yaxınlıqda yerləşən yaşayış məntəqlərində satılması ilə nəticələnirdi. Quru meyvəni isə daha uzun müddət saxlamaq və heç bir itki vermədən daha uzaq məsafələrə daşımaq mümkün idi. Elə bü səbəbdən də Ordubad meyvəçiləri yığdıqları məhsulun qurudulmasına daha çox üstünlük verirdilər. Təkcə Naxçıvan şəhərinə göndərilən ərik, şaftalı, alma kimi qurudulmuş meyvələrin çəkisi 10 min puddan artıq olurdu [17,s.52].

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycanın digər yerlərində olduğu kimi, Ordubadda da meyvəni qurudulması zamanı müxtəlif üsul və qaydalardan istifadə olunurdu. Yığılmış meyvənin günəşin şüaları altında qurudulması qaydası daha geniş yayılmışdı. Qurudulan meyvənin növündən asılı olaraq, bu proses 3 gündən 25 günə qədər davam edirdi. Meyvəni daha qısa müddət ərzində qurutmaq üçün isə xüsusi olaraq bu məqsədlə tikilmiş təndirlərdən istifadə olunurdu. Adi çörək təndirlərindən iki dəfə böyük olan belə təndirlər qırmızı kərpicdən tikilirdi. Meyvəni qurutmaq üçün təndiri əvvəlcə qızdırır, sonra isə qurudulacaq meyvəni oda davamlı xüsusi qablara yığaraq onun içinə düzürdülər. Bundan sonra təndirin ağzı bağlanır və yalnız iki gündən sonra açılaraq içərisindən artıq qurumuş meyvələr çıxarılırdı [2,s.163-165]. Yuxarıda deyildiyi kimi, belə meyvəni uzun müddət saxlamaq olurdu və onu uzaq məsafələrə itktsiz daşımaq heç bir çətinlik törətmirdi.

Meyvə bağları üçün ayrılmış əkin sahələrinin artması son nəticədə daha çox məhsul istehsal edilməsinə gətirib çıxarırdı. Bu isə öz növbəsində, satışa çıxarılan meyvənin həcmini artırır, onun satış bazarının genişlənməsinə səbəb olurdu. Mənbələrdən birində göstərilirdi ki, şəhərdə satış üçün hazırlanmış quru meyvələr bütün İrəvan quberniyasında, hətta onun hüdudlarından xeyli uzaqlarda yayılırdı [19,s.409]. Məhsuldarlığın yüksək olduğu illərdə bu məhsul İrəvan quberniyası ilə yanaşı, Tiflisə, Aleksandropola (Gümrü) və hətta Nuxaya da göndərilirdi. Bu bazarlarda Ordubadın ərik qurusu, kuraqa xüsusilə yüksək qiymətləndirilirdi. XIX əsrin 90-cı illərində Ordubaddan təkcə İrəvan şəhərinə hər il 15 min pud ərik qurusu göndərilirdi [16,s.158].

Ordubad şəhəri və onun ətrafında yerləşən kəndlər həm də üzüm bağları ilə şöhrət qazanmışdı. Bölgənin bir qədər gilli və qumsal torpağı müxtəlif üzüm növlərinin yetişdirilməsi üçün çox əlverişli idi. Naxçıvandan fərqli olaraq Ordubadda üzüm tənəkləri payızda budanır, qışda isə torpağa basdırılmırdı. XIX əsrdə Cənubi Qafqazda bağçılığın vəziyyətini öyrənmiş S.P.Zelinski Ordubadda 38 üzüm növü qeydə almışdı. Bunlardan ağagörməz, keçiəmcəyi, aldərə, arazbarı, əsgəri, qaraqarı, kişmişi, xatınbarmağı, xəlilli, mərməri və s. həm özlərinin məhsuldarlığı, həm də dadı ilə ilə seçilirdilər[10,s.34].

Mənbələrin verdikləri məlumatlardan aydın olur ki, həm bütün Ordubad qəzasında, həm də şəhərin özündə üzümçülüklə məşğul olmaq çox sərfəli idi. XIX əsrin 80-ci illərinə aid mənbələrdən birində göstərilir ki, burada hər desyatin üzüm bağının becırilməsi üçün 60 rubl məbləğində vəsait xərclənir, bunun müqabilində isə, orta hesabla, 370 rubl məbləğində gəlir götürülürdü[13,s.634].

Üzümçülk Ordubad şəhərinin yaxınlığında yerləşən kəndlərdə də əhalinin əsas gəlir mənbələrindən birini təşkil edirdi. XIX əsrin 30-cu illərinə aid arxiv sənədlərindən birində verilən məlumatdan aydın olur ki, Ordubad şəhərinin yaxınlığında yerləşən Aşağı Əylis, Yuxarı Əylis və Varagirt kəndlərinə məxsus üzüm bağlarının ümumi sayı 317-yə çatırdı [1,v.2-3,58-74]**.** Ancaq şəhər əhalisinə məxsus 70 üzüm bağının ümumi sahəsi isə 1000 desyatin ərazini əhatə edirdi [17,s.52;19,s.409]. Müasirlərdən birinin verdiyi məlumata görə, Ordubadın üzüm bağlarının hər desyatinindən ildə 280 pud məhsul götürülürdü ki, bu da hər desyatindən 60-70 rubl təmiz gəlir demək idi. Bütövlükdə isə, Ordubadın üzüm bağlarından hər il, ən azı 70-80 min rubl gəlir əldə edilirdi[19,s.410].

Yetişdililmiş üzümün bəzi növləri, ilk növbədə kişmişi növü daha çox təzə halda yeməyə sərf olunurdu. Digər məhsullar kimi, üzümün də xeyli hissəsi qonşu şəhərlərdə və vilayətlərdə satılırdı. Təkcə Naxçıvan şəhəri-

nə hər il dəyəri 4 min rubl təşkil edən 8-10 min pud üzüm göndərilirdi [17,s.52]. Bəzi vaxtlarda ordubadlılar üzümü qonşu Qaradağ xanlığında taxılı dəyişdirirdilər [7,s.198]. İstehsal edilmiş üzümdən sirkə, doşab və şəhərdə yaşayan azsaylı xristianlar şərab hazırlamaq üçün istifadə edirdilər.

## ƏDƏBİYYAT

1.Azərbaycan DTA, f. 24, siy.1, iş 358
2.Bünyadov T.Ə., Cavadov Q.C. Bağçılıq //Azərbaycan etnoqrafiyası, I c. Bakı,1988
3.Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 2001
4.Piriyev V. Naxçıvan tarixindən səhifələr, Bakı, “Müəllim” nəş-tı, 2004
5.Ваидова Х. История города Ордубада. Баку, 2007
6.Географическо-статистический словарь Российской империи, т. III, СПб., 1867
7.Григорьев В.Г. Статистическое описание Нахичеванской провинции. СПб., 1833
8.Егиазаров С.А. Исследование по истории учреждений в Закавказье. Городские цехи. Казань, 1891
9.Записки Кавказского общества сельского хозяйство. 1867, №3-4
10.Зелинский С.П. Садоводства в Закавказском крае. //Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края. т. IV, ч. II, Тифлис, 1888
11.Кавказский календарь на 1863 год. Тифлис, 1862
12.Олеарий Адам.Подробное описание путешествия Голштинского посольства в Московию и Персию в 1633, 1636 и 1639 годах. Составлено секретарем посольства Адамом Олеарием. (Пер. с немецкого П.Барсов). М., Университетская Типография, 1870
13.Материалы по изучению экономического быта государственных крестьян Закавказского края. т. 1, Тифлис, 1885)
14.Мурадалиева Э.Б. Города северного Азербайджана во второй половине XIX века. Баку, 1991
15.ОРВЗК, ч. IV, СПб., 1836
16.Сборник сведений по плодоводству в Закавказском крае. вып. II, Тифлис, 1899
17.Сборник статистических сведений о Кавказе. т. I, Тифлис, 1869
18.Хамдуллах Казвини. Нузхат ал-кулуб (материалы по Азербайджану).Баку, Элм, 1983
19.Черноярский Н. Город Ордубат, в промышленном отношении //Кавказский календарь на 1868 год. Тифлис, 1867
20.Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. СПб., 1852

***Видади Айдын оглы Мурадов***

## РОЛЬ САДОВОДСТВА В ЭКОНОМИЧЕСКОЙ ЖИЗНИ ГОРОДА ОРДУБАД

### *РЕЗЮМЕ*

Климатические условия и плодородные почвы города Ордубад создавали благоприятные условия для развития здесь разных направлений садоводства. Население города, который находился на расстоянии от основных торговых путей, обеспечивало свое существование доходом, который получало от садоводства. Расширение площади садов, принадлежащих горожанам, было связано именно с этим фактором. Отличающиеся высокими вкусовыми качествами виноград, яблоки, груши, абрикосы, персики, сливы и другие фрукты, выращенные в садах Ордубада, прославились не только на местных рынках, но и в соседних странах и провинциях. Сухофрукты Ордубада отправлялись в города Нахчыван, Эриван, Тифлис, Нуха и в Карабахское и Гарадагское ханства.

***Vidadi Aydin oglu Muradov***

**THE ROLE OF GARDENING IN THE ECONOMIC LIFE OF ORDUBAD CITY**

***SUMMARY***

Natural climatic conditions and fertile soils in Ordubad created favorable conditions for the development of various areas of gardening. Ordubad people had hard time to support their living as a result of the city's location away from the main trade routes. Therefore, they were engaged in gardening. The yearly increase in the areas of gardens belonging to the city's population was associated with this. High-quality grapes grown in vineyards, apple, pear, apricot, peach, cherry plum and other fruits grown in Ordubad were popular in all the surrounding areas. The products produced here were considered the most saleable products both in the local market, and also in neighboring countries and regions. Ordubad's dried fruits were mostly sent to Nakhchivan, Iravan, Tbilisi, Nukha cities, as well as the neighboring Karabakh and Garadagh Khanates.